# Ramiz DUYĞUN-85



Hörmətli Ramiz müəllim!

Sizi - tanınmış şair-publisist və hərbi jurnalisti 85 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1956-cı ildə Əlibayramlı (indiki Şirvan) şəhərində orta məktəbi bitirib həmin il Azərbaycan Tibb Universitetinə daxil olmusunuz. 1962-ci ildə həmin Universiteti bitirib, müalicə həkimi ixtisası üzrə SSRİ silahlı qüvvələrinin zabit kadrları korpusuna 25 il müddətində hərbi xidmətə çağırılmısınız.

1989-cu ildə tibb xidməti polkovniki rütbəsində ordu sıralarından tərxis edilmisiniz. SSRİ silahlı qüvvələrində xidmət etdiyiniz 27 il ərzində SSRİ dövlətinin 15 təltifi, o cümlədən "SSRİ Silahlı Qüvvələri veteranı medalı", OADKYC tərəfindən "Şərəf nişanı" medalı və Sovet Müharibə Veteranları Komitəsinin Rəyasət Heyəti tərəfindən "1941-1945-ci illərdə Qələbənin 35 illiyi Diplomu" ilə mükafatlandırılmısınız. Vətənpərvərlik mövzusunda keçirilən ümumittifaq miqyaslı bir çox simpozium və konfransda iştirak etmisiniz.

1973-cü ildə xidmət yerinizi Bakı şəhərinə dəyişdikdən sonra hərbi jurnalistika ilə məşğul olmuş, Azərbaycan Dövlət Teleradio Komitəsinin Hərbi Vətənpərvərlik redaksiyası ilə əməkdaşlıq edərək, "Hünər" proqramının daimi aparıcısı və müəlliflərindən biri olmusunuz. Bu əməkdaşlıq 17 il fasiləsiz davam etmişdir. 1978-ci ildən 1989-cu ilə qədər Tibb Universitetinin xüsusi hazırlıq kafedrasında müəllim, baş müəllim və şöbə rəisi vəzifələrində xidmət etmisiniz. Hərbdən tərxis edildikdən sonra Azərbaycan Sovet Ensiklopediyası "Xatirə" redaksiyası qrup rəhbərinin müavini, Azərbaycan Ziyalıları Demokratik İttifaqı Xeyriyyə Cəmiyyətinin sədri vəzifəsində çalışmısınız.

Siz 1990-cı ilin qanlı yanvar hadisələrindən sonra SSRİ DTK-sı tərəfindən Lefortovo zindanına atılan istiqlal mücahidi, Xalq şairi Xəlil Rzanın ictimai vəkili və məhkəmə prosesində müdafiəçisi olmusunuz.

Siz müstəqil Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sıralarına könüllü daxil olmuş, Müdafiə Nazirliyi informasiya və ictimaiyyətlə əlaqə şöbəsinin rəisi vəzifəsinə təyin edilmisiniz. 1992-ci ilin fevral ayında Nazirliyin mətbu orqanı olan "Aərbaycan Ordusu" qəzetini yaratmış, bununla da müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hərbi mətbuatının əsasını qoymusunuz.

Hərbi xidmətiniz dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, dövləimizim 10 medalı, o cümlədən Azərbaycan Silahlı Qüvvələri veteranı medalı ilə təltif edilmisiniz. 2006-cı ildə "Azərbaycan bayrağı" ordeninə layiq görülmüsünüz.

Siz 11 yaşından şeir yazmağa başlamısınız, ilk şeirləriniz məktəb və rayon qəzetlərində dərc edilmişdir. "Yaşa Azərbaycanım" adlı ilk mətbu şeiriniz 1959-cu ildə "Gəncliyin səsi" almanaxında dərc edilmişdir. Bir müddət Azərbaycandan uzaqlarda xidmət etdiyinizdən dövri mətbuatda imzanız az-az görünmüşdür. Xidmət yeriniz Bakıya dəyişdirildikdən sonra ədəbi yaradıcılığınız vüsət almışdır. "Vətən kimi şirin", "Göy üzü damar-damar", "Haray, dünya", "Sənə and içirik, Şuşa qalası", "Silkələn torpağım, püskür torpağım", "Təki Vətən yaşasın", "Məni döyüşə burax", "Qalibiyyət dastanı" kimi şeirlər və poemalardan ibarət kitablariniz nəşr edilmişdir. "Mənim unudulmaz məktəbim", "Nə yaxşı ki, Türkiyə var", "Qalib gələcəkmi cahanda kamal", kitablarınızda publisistik əsərləriniz toplanmışdır.

Siz tərcümə sahəsində də fəaliyyət göstərmiş, Ukrayna yazıçısı Tutıkın "Onlar başqa cürə ola bilməzdilər", L.Borodetski və R.Zeynalovun "416-cı Taqanroq diviziyası" sənədli povestlərini və seçilmiş əsərləri tərcümə və çap etdirmisiniz.

Görkəmli rus şairi Robret Rojdestvenskinin tərcümə etdiyiniz "İntizar" poeması əsasında Azərbaycan Dövlət Televiziyasında "Bir aktyorun teatrı"silsiləsindən monotamaşa göstərilmişdir. "Əbədiyyətdən gələn məktub" mənzum pyesini əsasında Azərbaycan Dövlət Televiziyasında eyni adlı tamaşa göstərilmişdir.

Cəmşid Naxçıvanski adına Hərbi liseyin yaradılmasının 15 illiyi münasibətilə yazdığınız ssenari əsasında Azərbaycan Dövlət Kinostudiyasında "Ağ atlı oğlanın nağılı" adlı iki hissəli tədris filmi çəkilmiş və vaxtilə bütün orta məktəblərdə nümayiş etdirilmişdir. "Xarıbülbül" adlı pyesiniz Qusar Dövlət Ləzgi Dram Teatrının repertuarına daxil edilmişdir.

Hörmətli Ramiz müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun, sağlam ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 4 mart.- S. 20.**